Ədəbiyyat qəzeti

28 20 mart 2021-ci il

# Şövkət Zərin HOROVLU - 80




Hörmətli Şövkət xanım!

Sizi, tanınmış yazıçı-şairi yubileyiniz münasibətilə təbrik edirik.

Siz 20 mart 1941-ci ildə Cəbrayıl rayonunun Horovlu kəndində anadan olubsunuz. İlk təhsilini öz kəndinizdə M.Qorki adına orta məktəbdə alıbsınız. ADU-nın filologiya fakültəsini bitirmiş, 1972-ci ildən təqaüd yaşına qədər Bakının müxtəlif məktəblərində müəllim, metodist işləyibsiniz Pedaqoji fəaliyyətinizi Təhsil Nazirliyi və təhsil Şöbəsi "Fəxri fərman"larla qiymətləndirib. 1977-1981-ci ilə qədər ailəsi ilə birlikdə Əfqanıstanda yaşayıbsınız. Əfqanıstan Milli Azadlıq inqilabına həsr etdiyiniz "Açılmamış zərf" xatirə povestiniz "Azərbaycan" jurnalında çap olunub. İlk şeir kitabınız "Çinar həsrəti", "Şuşa" nəşriyyatında işıq üzü görüb. Sonralar "Mərhum şair Səyavuş Sərxanlının redaktorluğu ilə "Mən Araz qızıyam", "Sözün işığı" şeir və poemalar kitablarınız "Şirvan" nəşriyyatında çap olunub. "Heykəlləşən qatar" "Ürəyim dan yeridi" ("Şur" nəşriyyatı), "Mənim dünyam" (Adiloğlu) "Sənsiz ağlayan nəğmə" ("Təhsil" nəşriyyatı, "Oxu əllərimi" ("Şirvannəşr") şeir və poemaları nəşr olunub.

"Mənim dünyam", "70 illik ömür yolu" povestləriniz, "Arazdan gələn səs", "Köynək", "Əbədiyyətə qədər" romanlarınız Qarabağda erməni vandalizmin dəhşətlərinə həsr edilib 1945-46-cı illərdə S.C.Pişəvəri inqilabının süqutundan bəhs eləyən "Tale yolu" və Əfqanıstanda on bir qəryada yaşayan, Qarabağdan köçüb gedən Əfşarlar, Qacarlar, Kəbirlilər tayfalarının həyatına həsr elədiyiniz "Axırıncı gediş" romanını yazıbsınız. Uşaq şeirlərindən barət "Babam iki alıb", "Babam əyri yeriyir", "Yeddinci Sevinc" kitablarınız nəşr edilib. "Azərbaycan" jurnalında, "Ədəbiyyat qəzeti"ndə, "525-ci qəzet"ində uzun müddətdir ki, çap olunursunuz.

Hörmətli Şövkət xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə ailə xoşbəxtliyi, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**